AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ECONOMIC AND SOCIAL CRISIS IN THE ILKHANATE AND ITS CAUSES (1284-1295)

**Orkhan Eyyubov**[1]

**UDC:** 94(55+479.24)“1284/1295”:338.124.4:316.34
**LBC:** 63.3(5Aze)433:65.012.12
**HoS:** 163
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.164-174

**Keywords:**

Ilkhanate, economic crisis,
Sa’d al-Dawla,
Sadr al-Din Zanjani,
"Chao" reform,
Inju lands,
Arghun Khan,
Gaykhatu Khan

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Economic History

## ABSTRACT

The article comprehensively examines the causes and consequences of the socio-economic decline that occurred in the Ilkhanid state between 1284 and 1295. The main focus of the study is the administrative vacuum that emerged after the execution of Sahib-Divan Shams al-Din Juvayni and its impact on the financial foundations of the state. Initially, the principal forms of land ownership are analyzed and their proportion within the state is determined. The condition of the major cities is also addressed, with particular emphasis on the unity of the population of Tabriz in the face of injustice. The article further analyzes the failure of Arghun Khan’s attempts to restore the traditional Mongol model, the irrational expenditure of the treasury during the reign of Gaykhatu Khan, and the negative consequences of granting the dynasty’s private lands, known as “Inju”, as tax farms (muqataʻa). One of the central aspects of the study is the examination of the failure of the “chav” reform introduced in 1294 and its paralyzing effect on trade relations. Based on the analysis of primary sources and scholarly works, it is concluded that the years 1284–1295 marked the culmination of tensions between the nomadic Mongol aristocracy and the sedentary local bureaucracy, and that the deep crisis of this decade made the radical reforms of Ghazan Khan a historical necessity. The article also provides a detailed overview of the social stratification of the period and highlights the socio-economic impact of each group.

[1] Senior Assistant, Department of Iranian History and Economy, Institute of Oriental Studies, ANAS; Baku, Azerbaijan
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097

**To cite this article:** Eyyubov, O. [2026]. Economic and Social Crisis in the Ilkhanate and Its Causes (1284-1295). *History of Science journal*, *7*(2), pp.164-174.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.164-174

***Article history:***
*Received: 17 March 2026*
*Revised: 20 April 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ELXANİLƏR DÖVLƏTİNDƏ (1284-1295) İQTİSADİ-SOSİAL BÖHRAN VƏ ONUN SƏBƏBLƏRİ

**Orxan Eyyubov**[1]

**UOT:** 94(55+479.24)“1284/1295”:338.124.4:316.34
**KBT:** 63.3(5Aze)433:65.012.12
**HoS:** 163
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.164-175

**Açar sözlər:**

Elxanilər,
iqtisadi böhran,
Sadüddövlə,
Sədrəddin Zəncani,
"Çav" islahatı,
İncu torpaqları,
Arqun xan,
Keyxatu xan

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

İqtisadi Tarix

## ANNOTASİYA

Təqdim olunan məqalədə 1284-1295-ci illər arasında Elxanilər dövlətində baş vermiş sosial-iqtisadi tənəzzülün səbəbləri və nəticələri kompleks şəkildə tədqiq olunur. Araşdırmanın əsas diqqət mərkəzində Sahibdivan Şəmsəddin Cüveyninin qətlindən sonra idarəçilikdə yaranmış boşluq və bunun dövlətin maliyyə dayaqlarına təsiri dayanır. İlk öncə əsas torpaq mülkiyyət formaları incələnərək, onların dövlət içərisində istifadə faizi müəyyənləşdirilmişdir. Dövlətin mühüm şəhərlərinin vəziyyəti də işıqlandırılmağa çalışılmış və Təbriz əhalisinin haqsızlığa qarşı birliyi xüsusi vurğulanmışdır. Daha sonra məqalədə Arqun xanın ənənəvi monqol modelini bərpa etmək cəhdlərinin uğursuzluğu, Keyxatu xan dövründə xəzinənin qeyri-rasional xərclənməsi və xanədanın şəxsi mülkləri olan "İncu" torpaqlarının müqatiyə verilməsinin yaratdığı fəsadlar təhlil edilir. Tədqiqatın ən mühüm hissələrindən biri kimi 1294-cü ildə tətbiq olunan "çav" islahatının iflası və bunun ticarət əlaqələrini iflic etməsi məsələləri araşdırılır. İlkin mənbələrin və elmi əsərlərin analizi əsasında belə bir qənaətə gəlinir ki, 1284-1295-ci illər köçəri monqol aristokratiyası ilə yerli oturaq bürokratiya arasındakı uyuşmazlığın kulminasiya nöqtəsi olmuş və bu onillikdə yaşanan dərin böhran Qazan xanın radikal islahatlarını tarixi bir zərurətə çevirmişdir. Ayrıca məqalədə dövrün sosial-sinfi təbəqələşməsi ətraflı göstərilmiş və hər birinin sosial-iqtisadi təsiri vurğulanmışdır.

[1] Böyük laborant, İran tarixi və iqtisadiyyatı şöbəsi, Şərqşünaslıq İnstitutu, AMEA; Bakı, Azərbaycan
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097

**Məqaləyə istinad:** Eyyubov, O. [2026]. Elxanilər dövlətində (1284-1295) iqtisadi-sosial böhran və onun səbəbləri. *History of Science jurnalı*, *7*(2), səh.164-174.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.164-174

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 17.03.2026*
*Yenidən baxılıb: 20.04.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ КРИЗИС В ГОСУДАРСТВЕ ИЛЬХАНИДОВ И ЕГО ПРИЧИНЫ (1284-1295)

**Орхан Эйюбов**[1]

**УДК:** 94(55+479.24)“1284/1295”:338.124.4:316.34
**ББК:** 63.3(5Азе)433:65.012.12
**HoS:** 163
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.164-174

**Ключевые слова:**

Ильханиды, Экономический кризис, Сад ад-Даула, Садр ад-Дин Занджани, Реформа «Чао», Земли инджу, Аргун-хан, Кейхату-хан

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Экономическая история

## АННОТАЦИЯ

В представленной статье комплексно исследуются причины и последствия социально-экономического упадка, произошедшего в государстве Ильханидов в 1284–1295 гг. Основное внимание уделяется управленческому вакууму, возникшему после казни сахиб-дивана Шамс ад-Дина Джувейни, и его влиянию на финансовые основы государства. Прежде всего анализируются основные формы земельной собственности и определяется их удельный вес внутри государства. Также освещается положение важнейших городов, при этом особо подчеркивается единство населения Тебриза перед лицом несправедливости. Далее в статье рассматриваются неудачные попытки Аргун-хана восстановить традиционную монгольскую модель управления, нерациональное расходование казны в период правления Кейхату-хана, а также негативные последствия передачи личных владений династии — земель «инджу» — в систему откупа (мукатаа). Одним из ключевых аспектов исследования является анализ провала реформы «чав», введенной в 1294 году, и ее парализующего воздействия на торговые связи. На основе анализа первичных источников и научной литературы делается вывод о том, что 1284–1295 гг. стали кульминацией противоречий между кочевой монгольской аристократией и оседлой местной бюрократией, а глубокий кризис этого десятилетия превратил радикальные реформы Газана-хана в историческую необходимость. Кроме того, в статье подробно раскрывается социально-классовая структура общества рассматриваемого периода и подчеркивается ее социально-экономическое влияние.

[1] Старший лаборант, Отдел истории и экономики Ирана, Институт востоковедения, НАНА; Баку, Азербайджан
E-mail: orxaneyyubov7@gmail.com
https://orcid.org/0009-0007-4720-9097
**Цитировать статью:** Эйюбов, О. [2026]. Социально-экономический кризис в государстве Ильханидов и его причины (1284-1295). *Журнал History of Science*, *7*(2), с.164-174.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.164-174

***История статьи:***
*Поступила: 17.03.2026*
*Переработана: 20.04.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir dövr tarixşünaslığında hadisələrin iqtisadi-sosial müstəvisindən çox onun siyasi əhəmiyyəti hər zaman ön plana çəkilmişdir. Tarix dövrün idarəçilərindən çox həm də dövrün sosial simasını araşdırmalıdır. Elxanilər dövrü həm dünya, həm də Azərbaycanda bir çox qaranlıq qalmış məsələlərlə doludur. Araşdırmaçıların böyük bir qismi salnaməçilərin yazdığı xronikanı təkrar qeyd etməklə işlərini bitirirlər. Elxanilərin məhz bu dövrünü işləməkdə əsas məqsəd, Şəmsəddin Cüveyninin 21 illik vəzirliyindən sonra yaranmış boşluq və bu böhranın sonradan Qazan xanın islahatlarına niyə səbəbiyyət verməsini araşdırmaqdır. Bu dövr yerli müsəlman oturaq əhali ilə köçəri tayfaların uyğunlaşması öncəsi baş vermiş son ziddiyyətdir.

Monqol işğalı sonrası yaranmış sosial boşluq uğrunda gedən mübarizənin sonuncu pərdəsi olan bu dövr xeyli önəmlidir. Arqun xanın ənənəvi monqol idarəçiliyini qaytarmaq cəhdləri dövləti daxili parçalanmaya gətirmiş və iqtisadi cəhətdən zəiflətmişdir. Keyxatunun uğursuz iqtidarı artıq bundan əvvəl gələn dövlət xəttini sonlandıraraq yeni bir inqlabi reformların ayaq səslərini göstərirdi.

Mövzu ilə bağlı əsasən Rəşidəddinin “Came ət-Təvarix”, Vassafın “Tarix-i Vassaf” və Aksarayinin “Müsamərətül Əhyar” mənbələrindən istifadə edilmişdir. Mövzunun tarixşünaslığında isə azərbaycanlı, türk, ingilis, fransız və fars müəlliflərinin yazılarına üstünlük verilmişdir. Jean Aubin, Charles Melville, Bausani kimi avropalı tarixçilərin yazıları son dərəcə mühüm və oxunulmalıdır. Türkiyədən Hüsniye Koçun araşdırma tezi və fars tarixçi Şirin Bəyaninin kitabı xüsusən qeyd olunmalıdır.

Azərbaycanlı tarixçilər Vaqif Piriyev və Seyidağa Onullahı dövrün sosial-iqtisadi mənzərəsini ətraflı şəkildə göstərə bilmişdir.

## 2.İqtisadi baza və uzunmüddətli strukturlar

Bu dövrdə Elxani torpaq sistemi hələ nizama salınmamışdı. Dövlətin bütün əraziləri haqqında məlumatın yetərsizliyi də bu dövr haqqında dəqiq bir statistika göstərməyin qarşısını alır. İlk olaraq mülkiyyət formalarının durumunu dəyərləndirək. İncu torpaqları xanədanın şəxsi mülkləri idi. “İncu-yi Kəbir”, “əmlaki Xəssa”, “divan-i incu” və ya “mülk-i padşah” kimi adlarla qeyd olunur. Bu torpaqlar ən çox Aran və Azərbaycan ərazilərində geniş mövcud idi. Monqol elitası olan xanədan üzvləri və əmirlər bu torpaqlara nəzarət edirdi. Tarixçi Jean Aubin qeyd edirki bu torpaqlar türk-monqol tayfalarının miqrasiyasi və yeni ələ keçirilmiş ərazilərdə yerləşdirilməsi üçün böyük rol oynamışdır. Bu hadisələr kənd təsərrüfatını dəyişdirsə də, onu düşünülənin əksinə məhv etmədi [Aubin, 1976, s.85]. İncu torpaqlarında əmirlər əsasən mal-qara saxlmaqla məşğul idilər.

Digər ən geniş yayılmış incu torpaqları Anadolu, Bağdad və Fars Atabəyliyində yerləşirdi. Şəmsəddin Cüveyni 1277-ci ildə Anadoluda üsyanı yatırdıqdan sonra xalqın artan vergilərdən əziyyət çəkdiyini görmüşdü. Beləliklə o, Ərzincan və ətraf ərazilərini incu torpaqları edərək oradakı kəndlilərin zülmdən xilas olmasına şərait yaratmışdır [Yazıcı]. Salnaməçi Aksarayi bu əməllərinə görə ona ithafən yazırdı: “Sən hökm taxtında oturduğun müddət ərzində, zülmün və haqsızlığın əllərini bağladın, sənə İlyas desəm ondan daha yüksəkdəsən, Xızır desəm yer üzündəsən” [Aksarayi, 1943, s.166]. Buna baxmayaraq 1284-cü ildən sonra yaranmış iqtisadi böhran o qədər artmışdır ki, Şiraz ərazisində olan incular Arqun xan(1284-1291) dövründə 600 min, Qazan xan(1295-1304) dövründə isə 1 milyon dinara müqatiyə verilmişdir [Nəcəf, 2026, s.93]. 1293-cü ildə Keyxatu xan(1291-1294) xəzinəni doldurmaq üçün Fars əyalətindəki xanədan incularını dörd illik 10 milyon dinara müqatiya icarəyə vermişdir [Vassaf, 1967, s.158]. Bu isə gələcəkdə yaşanacaq tarixi prosesin səbəblərindən biri idi. Məhz bu inculari idarə edən Mahmud Şahın nəsli yekunda öz müstəqilliyini elan edərək mərkəzi Şiraz olan İncular dövlətini (1335-1357) quracaqdılar.

Ölkədə ən böyük əraziləri əhatə edən torpaq mülkiyyəti divan torpaqları idi. Bu torpaqlar "müqati sistemi" ilə idarə olunurdu. Burada əsasən yerli kəndlilər yaşayırdılar. Divan torpaqları dövlət tərəfindən müxtəlif icarədarlara üç-dörd illiyinə verilirdi. Bunun səbəbi dövlətin öz məmurlarına güvənməməsi idi. Beləliklə həm icarədar varlanırdı, həm də əldə etdiyi vergilərin bir hissəsini dövlətə gecikmədən çatdırırdı. Ancaq onların vergiləri böhran dövründə daha çox artırması kəndliləri ağır vergi yükü altına salırdı. Ayrıca müxtəlif ailə qruplarıda var idi ki, Hülakü xan zamanından bəri eyni vəzifələri icra edirdilər [Spuler, 2011, s.366].

Bu dövrdə iqtaların sayı artmışdır. 1277-ci ildə bütün iqta torpaqlarında məsul şəxs Məlik Şəmsəddin Məhəmməd elan edilmişdir. Xalqa ağır vergilər təyin etdiyindən böhran yaranmış və iğtişaşlar artmışdır [Vassaf, 1967, s.52].

Arqun xan taxta çıxdıqdan sonra xristiyanlara xüsusi qayğı göstərmiş və onların vəqflərini artırmışdır. O, Marağa şəhərindəki Mar Şalita kilsəsinində yer aldığı bir çox qədim kilsəni yenidən inşa etdirir [Grousset, 2019, s.354].

Jean Aubin Azərbaycan üçün araşdırmasında divan və incu torpaqlarının daha çox olduğunu qeyd edir [Aubin, 1976, s.90]. Təqribi olaraq bu torpaqlar bütün ərazilərin 70-80 faizini əhatə edirdi.

Aristokratiyanın içərisində iki tərəf var idi. Bunlardan birincisi monqol əmirlərin öndə gəldiyi yerli xalqı vergi gözündə görən hissə idi. Yağma yolu ilə onları talan edərək öz sərvətlərini artırırdılar. Digər qismi isə daha çox yerli əhaliyə mənsub bürokratlar, din adamları və tacirlər idi. Bu şəxslər güclü bir mərkəzi dövlət qurulmasını, kənd təsərrüfatının inkişaf etdirilməsini, şəhərlərin və iqtisadiyyatın canlandırılmasının tərəfdarı idilər [Boyle, 1968, s.492].

Bu dövrdə Elxani şəhərləri bir-birindən fərqlənsə də, əsas hər biri gerilməkdə idi. Ümumi olaraq mərkəzi hakimiyyətin zəifləməsi regional idarəçilərin özbaşınalığı ilə xarakterizə olunur.

Ölkənin paytaxtı Təbriz bu dövrdə əsas şəhər idi. Ancaq əhalisi əksəriyyəti şəhərdə azlıq təşkil edən bir qrup feodal və məmuru çıxmaqla sənətkar, alverçi və digər peşə sahibləri idi. Marko Polo bildirirdi ki: "Əcnəbilərlə ticarət edənlər tez varlanırlar, ancaq şəhərin əhalisi ümumiyyətlə yoxsuldur" [Onullahi, 1982, s.78]. Avropadan və Şərqdən (əsasən Çindən) gələn tacirlər şəhərdə zənginlik içərisində yaşaya bilirdilər.

Bu dövr önəmli tacirlərdən biri olan Tacəddin Əlişahı qeyd etmək olar. O, həm də iri feodal idi. Onun Təbrizdə, Şamda, Bağdadda çoxlu toxuculuq karxanası, Təbrizdə xeyli bazar və karvansaray tikdirmişdi. Belə tacirlər dövlətə yüklü miqdarda vergi ödəyirdilər. "Çav" pulu ölkənin bütün şəhərlərində tətbiq olunmağa başlamışdı. Ancaq məhz Təbriz əhalisinin etirazi və üsyanından sonra bu pul qaldırılmışdır [Onullahi, 1982, s.76]. Təbrizlilər çavın ləğvindən sonra yenidən şəhərə qayıtmışdır. Bu da şəhər əhalisinin necə təsirli gücə malik olduğunun göstəricisidir.

Kirman və Şiraz kimi şəhərlər bu dövrdə yerli atabəylər tərəfindən idarə olunurdu. Məhz buna görə digər şəhərlərə nisbətən sabitlik var idi. Şəhərdə islam bir qədər müstəqil idi. Elm və təhsil inkişaf etmişdir [Aigle, 2024, s.23].

Bəsrə və Bağdad keçmiş əzəmətini itirmişdi. Cüveyni ailəsinin Bağdadda bərpa işləri şəhərə müəyyən qədər canlılıq qatsa da, ardından gələn on bir il müddətində şəhər yenədə özbaşına qalmışdı. Anadoluda yarım-müstəqil bəyliklər, Xorasanda Kurt sülaləsi hakim idi. Birbaşa Elxanilərə bağlı olan İsfahan, Həmədan kimi şəhərlər əsasən hərbi baza kimi istifadə edilirdi.

Qafqaz daim Hülakülərlə Qızıl Orda dövləti arasında müharibə meydanına çevrildiyindən ərazi iki əsr geriləmişdir. Gəncə, Beyləqan, Dərbənd, Şamaxı kimi şəhərlər öz ehtişamını itirmişdir. Əhalinin çoxu qərbə köç etdiyindən bu ərazilər monqol xanlarının

otlaq sahələri kimi istifadə olunurdu. Şəhər qalaları isə monqol ordularının hərbi qarnizonuna çevrilmişdi [Piriyev, 2003, s.210].

**3.Böhran**

Arqun xan 1284-cü ildə əmisi Əhməd Təküdəri məğlub edərək taxta çıxır. Onun vəziri Buğa Cəlayir özü kimi ənənəvi monqol xəttini müdafiə edirdi. Şəmsəddin Cüveynin etdiyi islahatların əksinə gedilərək sistemsiz bir siyasət yürütdülər. Xəzinənin böyük hissəsi ordunun gücləndirilməsi üçün istifadə olundu.Hələ əmisinin Şahi adasındakı xəzinələrini ələ keçirən zaman onların hamısını orduya verir [Reşidüddin, 2022, s.137]. Əhalinin iqtisadi vəziyyəti bu dövrdə ciddi şəkildə geriləyir. Buğanın iqtisadi məsələlərdən anlamaması özünü Fars əyalətində göstərir. O, 170 min dinar vergisini 500 tümənə qaldırmışdı [Vassaf, 1967, s.175].

Elxanilərin ən böyük gəlir mənbələrindən biri də Fars körfəzi idi. Bəsrədən göndərilən ticarət gəmiləri Hindistanla edilən ticarət sayəsində həm sahil hakimlərini, həm də dövləti zəngin edirdi. Elxanilərin Fars bölgəsində həyata keçirdiyi vergi və torpaq islahatları onu göstərir ki, dövlət bu ərazidəki torpaqların dəyərini bilirdi. 1148-1282-ci illərdə buranı idarə etmiş Salquri atabəyliyinin sonuncu valisi Abiş xatunun Arqun xanla evləndirilməsi və paytaxta köçürülməsi nəticəsində atabəyliyin mənimsənilməsi başlanmışdır. Salqurlarilərə məxsus xüsusi mülklər və torpaqlar müsadirə edilərək incu sisteminə daxil edilir. Bu siyasət daha öncə Abaqa xan dövründə başlansa da uğursuz olmuşdur. Beləliklə əraziyə göndərilən Seyyid Fəxrəddin Həsən Şirazi və Yul Qutluq sahiblərin hüquqi sənədlərini təqdim edə bilməməsini əsas gətirərək geniş miqyaslı müsadirə işinə başlamışdılar. Kəndlər, əkin sahələri, su mənbələri və digər istehsal vasitələrinin ¼-i divan nəzarətinə keçmişdir. Bunun nəticəsində bu torpaqlardan gəlir 600 min dinara çatmışdır [Aigle, 2024, s.73].

Bu proses Elxanilər elitasını fikir ayrılığına salmışdır. Buğa Cəlayir bunun kifayət etdiyini və bölgənin birazda müsadirə edilməsinin sosial sabitliyi pozacağına işarə etmişdir. Ancaq Arqun xan bunla razı olmamışdır.

Bir müddət buradan gəlir götürsə də, uzun müddətli davamlılıq tərəfdən kənd təsərrüfatını zəiflətmiş və əhalinin yoxsullaşmasına səbəb olmuşdur. Quraqlıq, çəyirtkə hücumları və xarici müdaxilələr bölgənin vəziyyətini çətin duruma salmışdır [Aigle, 2024, s.77].

Dövlət apartında və mülkədarlar içərisində Buğaya qarşı güclü müxalifət yaranır. Bunun nəticəsində də Arqun xan ilə arası açılır. Buğanın qardaşı Arıqın valisi olduğu Diyarbəkirin vergilərini mənimsəməsidə vəzirin durumunu çətinə salır. Fars ərazisində vəzifəli olan gələcək vəzir Zəncani şikayətlərini xana çatdırır. Beləliklə Əmir Buğaya qarşı ittihamlar yekunda onun uzaqlaşdırılması ilə nəticələnmişdir. Onun nəzarətində olan incular əmir Tağaçara verilmişdir [Koç, 2024, s.93]. Yekunda valinin naibi Hüsaməddin Qəzvini və qardaşı ilə birlikdə edam edilmişdir.

Bu mərhələdə Saddüdövlənin önü açılmışdır. Sadüddövlə Arqun xanın sarayında çalışan yəhudi həkim idi. Onun dünyagörüşü və bacarıqları üst səviyyədə idi. O, xanın var-dövlət hərisi olduğunu bilirdi. Məhz buna görə ona Bağdadın güclü iqtisadi potensialından bəhs etmişdi [Vassaf, 1967, s.142]. Ordu-Kiya adlı generalla müttəfiqlik edən vəzir onun Bağdada təyin olunmasına nail ola bilmişdi. Burada etdiyi təftişlərdən sonra böyük məbləğdə (beş qat daha çox) yeyinti olduğunu öyrənmişdir. Sadüddövlə hesabatları Arqun xana bildirmiş və nəticədə Buğanın qardaşı əmir Arıq və Qutluqşah vəzifələrindən uzaqlaşdırılmışdır [Koç, 2024, s.94]. Ordu-Kiyanın Bağdad əmiri təyin edilməsindən sonra Sadüddövlə onun naibi və iqtisadi məsələlər üzrə müşaviri olmuşdur. İraqda etdiklərinin nəticəsi olaraq Arqun xan 1289-cu ildə onu baş vəzir və sahibdivan təyin etmişdir. Vəzir ona əmanət olunan xanın xəzinəsini 1000 tümənə çatdıraraq nüfuzunu artırmışdır [Koç, 2024, s.95].

Saddüdövlənin gördüyü ən önəmli işlərdən biri vergi yığımı işini nizama salması idi. Vəzir bunun üçün Arqun xana deyirdi: “daruqaqçıların göndərilməsi malın tələf olmasına səbəb olur. Çünki onlar rəiyyəti incidir və xəzinə üçün yığılan pulları mənimsəyirlər” [Vassaf, 1967, s.143] Bunun əvəzinə verginin etibarlı şəxslərə verilməsi fikrində idi. O, bir müddətdə qalsa idi bu sahədə mühüm islahatlar keçirəcəkdi. Ancaq qısa müddətli hakimiyyəti dövründə istəklərini gerçəkləşdirə bilmədi. 1291-ci ildə xanın ölümü bütün idarəçiliyi əlində saxlayan Sadüddövlə üçün yaxşı olmaycaqdı. Nəticədə müxaliflər üsyan etdilər və onu devirdilər.

Vassaf əsərində qeyd edir: “Yəhudi dövləti (Sadüddövlənin vəzifəsi) devrildikdə aləmi iztirab bürüdü, hər hakim özbaşınalıq yolunu tutdu” [Vassaf, 1967, s.148]. Bütün bu hadisələr böyük böhranın başlanğıcı oldu. Hələ Arqun xanın ölümündən aylar öncə 1290-cı ilin qışında Arqun xan Təbrizə getdiyində Ramazan bayramı idi. O, Təbriz şəhərində dörd minbər qoyulmasını əmr etmişdi. Qadılar, imamlar və bütün müsəlmanlar son dərəcə rahat şəkildə bayram namazını qıldılar. Qadılar və imamlar hilat və hədiyyələr alaraq evlərinə dönmüşdülər. Arqun xan yeni bir şəhər saldırmaq planında idi. Təbrizin Şam tərəfində yeni qəsəbənin salınması əmrini verdi. Bir çox binaların təməli atıldı. Bu ərazi sonradan Şəmbi-Qazan adlanacaq olan Arquniyyə adını aldı [Reşidüddin, 2022, s.170]. Bu şəhər Arqun xanın son arzusu idi çünki aylar sonra öləcəkdi. Tikinti işlərinə külli miqdarda pul sərf edildiyindən. Arqun xan öldükdən sonra həm böhranın səbəblərindən birinə çevrildi, həm də Arquniyyənin tikintisi yarımçıq qaldı.

Arqun xanın ölümündən sonra taxta çıxan Keyxatu dövlət idarəsi məsələsində zəyif idi. Onun fikri eyş-işrətdə idi xəzinənin böyük miqdarda hissəsini belə şeylərə xərcləyirdi. Anadolu onun üçün ən önəmli region idi. Çünki o, taxta məhz Anadolu valiliyindən gəlmişdi. Hələ 1286-cı ildə Sivas, Kayseri və Aksaraya səfərə çıxmışdır. Xalqın bu səfərdən qorxmasına baxmayaraq, Aksarayda böyük əyləncələr tərtib etdirmiş və şəhərin satıcıları külli miqdarda qazanc əldə etmişdir. Aksarayinin qeydlərinə görə həmin il normalda 200 min olan Aksaray vergiləri 400 min olmuşdur [Aksarayi, 1943, s.116]. Altı il Aksaraydan Anadolunu qorxu və qan ilə idarə etməsi artan narazılıqları ardından gətirdi.

Təbrizdə taxta çıxarkən dövlət işlərini idarə etmək üçün Sədrəddin Zəncaniyi vəzir və iqtisadi məsələlərdən məsul sahibdivan təyin etdi. Sərdərddin Zəncani incu torpaqlarının rəisi Tağaçar noyonun müşaviri olmuş və iqtisadi məsələlərdən anlayırdı [Aubin, 1995, s.48].Vəzifəni dövr alarkən acınacaqlı bir mənzərəylə qarşılaşan Zəncani ilk növbədə yerli xalqla əlaqələr qurmaqla başladı. Keyxatunun dövlət işləri ilə maraqlanmaması vəzirin önünü daha da açmışdır.

Dövlətin iqtisadi vəziyyəti o qədər acınacaqlı idi ki, vəzir Fars əyalətindəki inculari satmağa başlayır. Buradan gələn gəlirlər 100 min tümənə çatırdı [Vassaf, 1967, s.150]. Dövlət yerli aristokratiyadan asılı vəziyyətdə idi. Onların verdiyi vergilər mühüm rol oynayırdı. Vəzirin iki illik hakimiyyəti dövründə gəlirdən çox topladığı borcun miqdarı 500 tümən idi [Koç, 2024, s.111]. Digər tərəfdən Keyxatu Qızıl Orda ilə əlaqələri normallaşdırmağa cəhd edirdi. Ticarət yollarının açılması təmin olundu. Buda Qafqaz marşurutunun yenidən aktiv hala gəlməsi demək idi.

İlk tədbir yeni sikkələrin basımı idi. Bunu gümüş dinarların sayını artırmaqla etmək hədəflənirdi. İlk dövrdə işə yarasa da sonradan sikkələrin dəyəri ilə oynanıldığı nəzərə çarpmışdır. On dinarın sadəcə iki dinar gümüş etməsi, geri qalanın hissənin metal olması geniş hal almışdı. Beləki gümüş pulların tərkibində sadəcə 20% gümüş var idi [Morton, 2022, s.245].

1294-cü ilə gəldikdə ikinci plan olan çav puluna (kağız pul) keçid məsələsi üzərində uzun müzakirələrdən sonra Keyxatu razı olur. Müzəffər ibn Məhəmməd Amid bu pulu vəzir Zəncaniyə tövsiyə edərək Çində bunun uğurlu olduğunu bildirmişdir. Nəticədə Keyxatu xan

Çindəki vəzir Pulad Çinq Sanqla əlaqə saxlayaraq ondan da fikrini aldı. Çinli vəzir onun dəyərinin bir balış olduğunu qeyd edir [Vassaf, 1967, s.165]. Beləliklə bu pul vahidi Çindəki dizaynını saxlayaraq ona oxşar şəkildə tədavülə buraxılmışdır. Hərkəs sikkələrini dəyişdirib kağız puldan istifadə etməyə məcbur edildi. Hər 10 dinara 9 dinar dəyərində "çav" pulu verilirdi.

İlk kağız pul 1294-cü ilin iyulunda Təbrizdə tədavülə buraxıldı. Bu pulu istifadə etmək istəməyənlər məhkəməyə veriləcəkdi. Ölkənin hər yanında Çavxanalar açılmış və istifadə məcbur edilmişdir. Çavnamə adlı qaydalar hazırlanaraq bu pulla istifadə qaydaları bildirilmişdir [Hammer-Purgstall, 2024, s.387].

Ən çoxda tacirlər bu puldan istifadədən boyun qaçırmağa başladılar. Xalq içində bu pulun saxta olduğu və heç bir dəyərinin olmadığı fikri çox güclü idi. Bazarda satıcılar dükanları bağlayaraq şəhərləri tərk etməyə başlamışdır. Məhz bu dövrdə 10 dinar olan atın qiyməti 150 dinara qədər artmışdır. Dövlət üçün bu pulun emalı baha başa gəlmişdir. Çörəyin qiymətinin 30 qat artaraq 1 dinara çıxması ciddi göstərici idi. Heç kim çav qarşılığında malını satmaq istəmirdi [Koç, 2024, s.115].

Ən böyük böhran isə Fars körfəzində ticarətin dayanmasına gətirib çıxması idi. Bəsrə Körfəzində aristokratlar və tacirlər etiraz edərək ticarəti dayandırdı. Bu Elxani sarayı üçün fiasko idi. Nəticədə çav pul vahidi həmin ilin sonunda tədavüldən qaldırıldı [Hammer-Purgstall, 2024, s.390].

Bütün bu uğursuz siyasət Keyxatunun devrilməsi və daha sonra vəzir Zəncanin öldürülməsi ilə nəticələndi. Şiktur noyon, Qazan xan və əmir Novruz kimi digərləri vəziyyəti düzəltmək üçün hərəkətə keçdilər. 1295-ci il Baydu ilə Qazanın taxt mübarizəsi ilə yadda qalacaqdı. Ancaq nəticədə onu qeyd etmək lazımdırki bu kağız pul Azərbaycan və İran tarixində istifadə olunan ilk pul vahidi idi.

Tarixçi Şirin Bəyani bu dövrü köçəri hərbi aristokratiya ilə oturaq bürokratiya arasında son böyük ziddiyyət adlandırmışdır [Bəyani, 1992, cild 2, s.432].

## 4.Sosial nəticələr və gündəlik həyat

Böhran dövrünə baxılarkən cəmiyyətin təbəqələr arası münasibətin bir qədər hərəkətli olduğunu görürük. Məhz Əhməd Təkudarın islamı qəbul etməsindən sonra dini təkkələrin yolu açılmışdır. Bunlardan ən güclüsü Şeyx Səfi və Şeyx Zahid Gilaninin cərəyanları idi.

Xalqın dörd təbəqəsi olduğunu nəzərə alaraq bunlar arasındakı münasibəti göstərə bilərik. Ən başda xanlar, əmirlər və hərbi aristokratiya gəlirdi. Onlar xalqa çox uzaq idi. Bundan başqa yerli hakimlərdə bu sıraya daxil idi. İkinci təbəqədə bürokratiya nümayəndələri və dini rəhbərlər gəlirdi. Bu təbəqə həm dövlətə təsir edə bilirdi, həm də aşağı təbəqə ilə arası yaxşı idi. Arqun xan islama qarşı olsa belə müsəlman alim və imamları daim diqqətdə saxlayırdı. Çünki onlar xalqla olan bağı təmin edirdi.

Şeyx Səfinin müəllimi olan Şeyx Zahid Gilani Elxani sarayına qədər təsir gücünə malik idi. Keyxatu xanın qızı Qutluqşah bəyim Zahid Gilaninin yolunu dəstəkləyirdi. O, şeyxə hədiyyələr yollayaraq ona ehtiramını göstərmişdir [Uyar, 2012, s.21]. Müsəlman olmayan xanlar belə şeyxlərin qəbuluna gedirdilər. Onlara dərin hörmət bəsləyirdilər [Melville, 2003, s.136]. Bütün bunlar Elxani sarayında dini cərəyanların güclü əlaqələrinin olduğunu göstərir.

Digər öndəgələn şeyxlərdən biridə Kübrəviliyin nümayəndəsi Əlaüddövlə Simnani idi. O, sünni-şiə sintezini yaradaraq on iki imam fikirlərini mərkəzə yerləşdirmişdi. Bu təriqət daha sonra Nurbəxşiyyə təriqətinə çevriləcəkdi [Bausani, 1968, s.290].

Digər tərəfdən hələ Arqun xan dövründə xristiyan və yəhudilər dəstəklənməyə başlamışdır. 1289-cu ildə sahibdivan təyin olunan Sadüddövlə yəhudi inancına sahib idi. O, vəzifəyə gəldikdən sonra dövlət aparatlarında yəhudilərin sayı artır. Bütün bunlar müsəlman əhalinin qəzəbinə səbəb olur. Bununda təsiri ilə sonra o, edam olunacaqdı. Onun haqqında

fikirlə birtərəfli və yanıldıcıdır. Aksarayi birbaşa onu təhqir edərək pisləyir. Müsəlmanlara divan tutduğunu bildirir [Aksarayi, 1943, s.232]. Yəhudilər onun dövründə elə vəziyyətə gəlib çatmışdılar ki, hətta "Sadüddövlənin Yəhudi dövləti" deyə adlanırdı [Boyle, 1968, s.283].

Üçüncü təbəqə olan tacirlər və sənətkarların vəziyyəti çox acınacaqlı idi. İqtisadi böhran nəticəsində onlar dükanlarını bağlamış və qiymətlər artmışdır. Bütün bunlar nəticəsində ölkənin iqtisadi və sosial həyatı iflic olmuşdur. Rəiyyət isə artan vergilər və intizamsızlıq üzündən acınacaqlı vəziyyətdə idi. Ticarət yollarında və karvansaraylarda quldurlar tez-tez qarətlə məşğul idi [Aubin, 1976, s.125].

XIII əsrə qədər qadınların monqol dövlətində mühüm yerə sahib olduğunu görürük. Xanın xatunları öz fondlarını təsis edə və fəaliyyət göstərə bilirdilər. Ancaq bu tendensiya 1290-cı illərə qədər davam edə bildi. Çünki elə bu dövrlərdə Şirazı və Kirmanı idarə edən Abeş xatun(1264-1284) və Padşah xatunun (1292-1295) haqlarının əlindən alınmağa başladığını görməkdəyik. İlk olaraq Arqun xan Abeş xatunu Şirazdan ayıraraq paytaxta aparır. Onun atabəyliyi illik maaş bağlanaraq müəyyən qism varidatını saxlamaq müqabilində ləğv edilərək, torpaqları müsadirə edilir [Reşidüddin, 2022, s.175]. 1290-cı illərdə Keyxatu, Baydu və Qazan xan arasında baş verən çəkişmələr nəticəsidir ki, birdə qadınlar haqq iddia etməsin deyə onların hüquqları əllərindən alımağa başlanılır [De Nicola, 2017, s.242]. Əsrin əvvəlində regent statusu ilə bütün imperiyanı idarə edən monqol xatunları artıq Qazan xanın islahatları ilə bu hüquqdan məhrum olacaqdı.

**5.Nəticə**

Sahibdivan Şəmsəddin Cüveyninin ölümündən sonra yaşananlar onun necə güclü dövlət adamı olduğunu göstərirdi. Arqun xan dövründə müsəlmanları qıcıqlandıracaq bir çox addımların atılması dövrün sosial durumunu qarışdırmışdır. Xanın ənənəvi monqol idarəçilik modelini bərpa etmə cəhdləri uğursuzluqla nəticələnmişdir. Bu dövrdə boşalan xəzinəni doldurmaq üçün xanədan torpaqlarının da icarəyə verilməsi görülən ən uğursuz tədbir idi. Hətta onun ilk vəziri əmir Buğa nə qədər vəzifəsini güclü ifa etməsə də, onun Fars əyalətindəki müsadirələrin başlarına bəla olması fikri yekunda doğru çıxmışdır. Çünki bu incu sahibləri işlərini böyüdüb öz müstəqilliklərini elan edəcəkdi. Arqun xandan fərqli olan Keyxatu dövlət xəzinəsini istədiyi kimi kef məclislərinə xərcləyərək idarə işlərindən uzaqda durdu. Vəzir Sədrəddin Zəncaninin gördüyü tədbir səhv vaxtda görülmüş doğru addım idi. Sikkələrin tərkibində aparılan dəyişikliklər nəticəsində xalqın inamının sarsılması, hökumətin sonradan kağız pula keçməsi ilə birlikdə onun süqutunu sürətləndirmişdir. 1284-1295-ci illər köçəri monqol aristokratiyası ilə yerli xalq arasındakı uyuşmazlığın yaşandığı kuliminasiya nöqtəsidir. Bu dövr yaşanan sosial-iqtisadi tənəzzül Qazan xanın radikal reformları üçün ən böyük zərurət oldu.

**6.REFERENCES**


1. Aigle, D. (2024). *Iran Under the Mongols: Ilkhanid Administrators and Persian Notables in Fars*. London: I.B. Tauris, 256 p. (in English)
2. Aksarayi, M. (1943). *History of the Seljuk States* (N. Gencosman, Trans.). Ankara: Recep Ulusoglu Printing House, 391 p. (in Turkish)
3. Aubin, J. (1995). *Mongol Emirs and Persian Viziers in the Turmoil of Acculturation*. Paris: Association for the Advancement of Iranian Studies, 96 p. (in French)
4. Aubin, J. (1976–1977). Landownership in Azerbaijan under the Mongols. *Le Monde iranien et l'Islam*, 4, p.79–132. (in French)
5. Bausani, A. (1968). *Religion in the Saljuq and Mongol Period*. London: Cambridge Press, p.283–302. (in English)

6. Boyle, J. A. (Ed.). (1968). *The Cambridge History of Iran* (Vol.5: The Saljuq and Mongol Period). Cambridge: Cambridge University Press, 727 p. (in English)
7. De Nicola, B. (2017). *Women in Mongol Iran: The Khatuns 1206–1335*. Edinburg: Edinburg University Press, 309 p. (in English)
8. Grousset, R. (2019). *Empire of the Steppes: Attila-Genghis-Timur* (R. Uzmen, Trans.). Istanbul: Otuken Neshriyat, 632 p. (in Turkish)
9. Hammer-Purgstall, J. (2024). *History of the Mongols of Iran* (Kinay Kapkan, Trans.). Ankara: Dorlion Publishing, 391 p. (in Turkish)
10. Koc, H. (2024). *Economic Life of the Ilkhanid State* (Doctoral dissertation). Konya: T.C. Necmettin Erbakan University, 404 p. (in Turkish)
11. Melville, C. (2003). *History and Myth: The Persianisation of Ghazan Khan.* Cambridge: Cambridge, p.132–146. (in English)
12. Morton, N. (2022). *The Mongol Storm: Making and Breaking Empires in the Medieval Near East*. New York: Basic Books, 432 p. (in English)
13. Najaf, A. (2026). *The Jalairids: Political Succession in Azerbaijan after the Ilkhanids (1341–1431)*. Baku: Kosmo, 311 p. (in Azerbaijani)
14. Onullahi, S. (1982). *The City of Tabriz in the 13th–17th Centuries (Socio-economic History)*. Baku: Elm Publishing House, 284 p. (in Azerbaijani)
15. Piriyev, V. (2003). *Azerbaijan in the 13th–14th Centuries*. Baku: Nurlan, 456 p. (in Azerbaijani)
16. Rashid al-Din, F. (2022). *Jami al-Tawarikh (Ilkhanid Section)* (I. Aka, M. Ersan, & A. H. Khelejani, Trans.; 2nd ed.). Ankara: Turkish Historical Society Publications, 336 p. (in Turkish)
17. Spuler, B. (2011). *Iranian Mongols: Politics, Administration and Culture, Ilkhanid Period 1220–1350* (3rd ed., C. Koprulu, Trans.). Ankara: Turkish Historical Society Printing House, 572 p. (in Turkish)
18. Uyar, M. (2012). Turkish Sufis Who Played a Role in the Conversion of Ilkhanid Rulers to Islam: The Periods of Ilkhan Teguder and Ghazan Khan. *Ataturk Culture, Language and History High Institution*, LXXVI, p.7–30. (in Turkish)
19. Vassaf, S. (1346 SH / 1967). *Tarixi-Vassaf.* Tehran: Abdul-Mahammad Ayati Publishing, 308 p. (in Azerbaijani)
20. Yazici, T. (n.d.). *Shams al-Din Juwayni.* Retrieved from https://islamansiklopedisi.org.tr/cuveyni-semseddin (in Turkish)
21. Bayani, Sh. (Eslami Nodushan). (1371 SH / 1992). *Religion and State in Mongol Iran: Ilkhanid Government, the Struggle Between Two Cultures* (Vol. 2). Tehran: University Publishing Center. (in Persian)

## ƏDƏBİYYAT

1. Aigle, D. (2024). *Iran Under the Mongols: Ilkhanid Administrators and Persian Notables in Fars*. London: I.B. Tauris, 256 p.
2. Aksarayi, M. (1943). *Selçuki Devletleri Tarihi* (N. Gençosman, çev.). Ankara: Recep Ulusoğlu Basımevi, 391 s.
3. Aubin, J. (1995). *Emirs mongols et vizirs persans dans les remous de l'acculturation*. Paris: Association pour l'Avancement des Etudes Iraniennes, 96 p.
4. Aubin, J. (1976–1977). La propriété foncière en Azerbaydjan sous les Mongols. *Le Monde iranien et l'Islam*, 4, p.79–132.
5. Bausani, A. (1968). *Religion in the Saljuq and Mongol Period.* London: Cambridge Press, s.283–302.
6. Boyle, J. A. (Ed.). (1968). *The Cambridge History of Iran* (Vol.5: The Saljuq and Mongol Period). Cambridge: Cambridge University Press, 727 p.

**7.** De Nicola, B. (2017). *Women in Mongol Iran: The Khatuns 1206–1335*. Edinburg: Edinburg University Press, 309 p.
**8.** Grousset, R. (2019). *Bozkır İmparatorluğu: Attila-Cengiz-Timur* (R. Uzmen, çev.). İstanbul: Ötüken Neşriyat, 632 s.
**9.** Hammer-Purgstall, J. (2024). *İran Moğollarının Tarihi* (Kınay Kapkan, çev.). Ankara: Dorlion Yayınları, 391 s.
**10.** Koç, H. (2024). *İlhanlı Devleti'nin İktisadi Hayatı* (Doktora tezi). Konya: T.C. Necmettin Erbakan Universitesi, 404 s.
**11.** Melville, C. (2003). *History and Myth: The Persianisation of Ghazan Khan.* Cambridge: Cambridge, s.132–146.
**12.** Morton, N. (2022). *The Mongol Storm: Making and Breaking Empires in the Medieval Near East*. New York: Basic Books, 432 p.
**13.** Nəcəf, Ə. (2026). *Cəlayirlər: Elxanlılardan Sonra Azərbaycanda Siyasi Varislik (1341–1431).* Bakı: Kosmo, 311 s.
**14.** Onullahi, S. (1982). *XIII–XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi)*. Bakı: "Elm" nəşriyyatı, 284 s.
**15.** Piriyev, V. (2003). *Azərbaycan XIII–XIV əsrlərdə*. Bakı: Nurlan, 456 s.
**16.** Reşidüddin, F. (2022). *Camiu`t-Tevarih (İlhanlılar kısmı)* (İ. Aka, M. Ersan, & A. H. Khelejani, çev.; 2. baskı). Ankara: Türk Tarih Kurumu Yayınları, 336 s.
**17.** Spuler, B. (2011). *İran Moğolları: Siyaset, İdare ve Kültür, İlhanlılar devri 1220–1350* (3. baskı, C. Köprülü, çev.). Ankara: Türk Tarih Kurumu Basımevi, 572 sayfa.
**18.** Uyar, M. (2012). İlhanlı Hükmdarlarının İslama Girmesinde Rol Alan Türk Sufileri: İlhan Tegüder ve Gazan Han Devirleri. *Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu*, LXXVI, s.7–30.
**19.** Vassaf, Ş. (1346 h.ş.). *Tarixi-Vassaf*. Tehran: Əbdül-Məhəmməd Ayəti nəşri, 308 s.
**20.** Yazıcı, T. (n.d.). *Şemseddin Cüveyni.* Retrieved from https://islamansiklopedisi.org.tr/cuveyni-semseddin
**21.** بیانی، ش. (اسلامی ندوشن) .(۱۳۷۱). *دین و دولت در ایران عهد مغول: حکومت ایلخانی، نبرد میان دو فرهنگ* (جلد ۲). تهران: مرکز نشر دانشگاهی.